DOI: https://doi.org/10.36719/2706-6185/21/19-23

**Nüşabə Seyid**
ADPU-nun nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
pedaqogika üzrə fəlsəfə doktoru
s_nushaba@yahoo.com

# TƏHSİLİN RƏQƏMSALLAŞDIRILMASININ FAYDALARI VƏ RİSKLƏRİ

## Xülasə

Məqalədə təhsil sahəsində rəqəmsallaşmanın aktual problemləri öz əksini tapıb. Eyni zamanda, təhsildə rəqəmsallaşmanın tətbiqinin əsas istiqamətləri təhlil edilir, rəqəmsal təhsil mühitinin xüsusiyyətləri göstərilir.

Müəllif təhsilin rəqəmsallaşdırılmasının üstünlükləri və çatışmazlıqlarını aydın şəkildə izah edilir. Məqalədə rəqəmsal təhsilin ənənəvi təhsillə paralel şəkildə, bir-birini dəstəkləyərək həyata keçirilməsinin daha effektiv nəticə verəcəyi qeyd edilir.

Müəllif vurğulayır ki, təhsilin rəqəmsallaşdırılması gələcəyə doğru bir addımdır və bu, təhsilin həm məzmunun, həm də keyfiyyətinin yüksəlməsinə xidmət edir. Buna görə də ölkə ərazisində təhsildə müasir texnologiyalardan istifadəni təşviq edən prosesin həyata keçirilməsi zəruridir.

***Açar sözlər:*** *rəqəmsallaşma, təhsil, rəqəmsal texnologiyalar, gənc nəsil, öyrənmə*

**Nushaba Seyid**
Azerbaijan State Pedagogical College under ADPU
Doctor of Philosophy in Pedagogy
s_nushaba@yahoo.com

# Benefits and risks of digitalization of education

## Abstract

Actual problems of digitization in the field of education are reflected in the article. At the same time, the main directions of the application of digitization in education are analyzed, the characteristics of the digital educational environment are shown.

The author clearly explains the advantages and disadvantages of digitalization of education. In the article, it is noted that the implementation of digital education in parallel with traditional education, supporting each other, will give more effective results.

The author emphasizes that digitization of education is a step towards the future, and it serves to improve both the content and quality of education. Therefore, it is necessary to implement a process that promotes the use of modern technologies in education in the country.

***Keywords:*** *digitization, education, digital technologies, young generation, learning*

## Giriş

Rəqəmsallaşma təhsil sahəsində ən aktual mövzulardan biridir, çünki rəqəmsal texnologiyalar bizi hər yerdə-evdə, məktəbdə, xəstəxanada, universitetdə, müxtəlif müəssisələrdə əhatə edir və hər il daha da sürətlə inkişaf edir. Rəqəmsal bacarıqlar insanlara həyatda getdikcə daha çox kömək edir. Məsələn, indi müxtəlif qurumlarla qarşılıqlı əlaqə, xidmətlər, internet saytı, bank hesablarının idarə edilməsi və s. rəqəmsal proqramlar vasitəsilə həyata keçirilir. Bundan əlavə, insanlar getdikcə məsafədən işləməyə başlayırlar. Bütün bunlar məktəb yaşından uşaqlara rəqəmsal texnologiyalardan düzgün istifadə etməyi öyrətməyə başlamaq zərurətinə gətirib çıxarır.

Texnologiyanın sərhəd tanımadığı XXI əsrdə təhsil sistemi də təkmilləşərək inkişaf edir, çünki yeni nəslin tələbələrini keçmiş öyrənmə vasitələri təmin etmir. Onların maraq dairəsi genişdir və əvvəllər hazırlanmış təhsil sistemləri qarşılaya bilməz. Uşaqlarımıza dünən öyrətdiyimiz kimi

öyrətməyə davam etsək, onları sabahlarından məhrum etmiş olarıq. Köhnə təhsil sisteminin müasir dövrdə şansı yoxdur. Beləliklə, biz təhsil sistemimizdə rəqəmsallaşmadan istifadə etməyə məcburuq.

Ölkə başçısı İlham Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapan əsas istiqamətlərdən biri ölkəmizdə güclü insan kapitalı və innovasiya məkanının yaradılmasıdır.

"Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir" (1).

Bəli, yaşadığımız cəmiyyət müasir dövrün çağırışlarına cavab verə biləcək, rəqəmsal səriştələrə malik gənclərin olmasını tələb edir.

Rəqəmsallaşma rəqəmsal texnologiyaların gündəlik həyata inteqrasiyasıdır. Artıq dünya təhsil sistemində texnologiya baxımından böyük irəliləyişlər yaranır, görünməmiş ideyalar ortaya çıxır. Amerika pedaqoqu Jenny Arledgenin qeyd etdiyi kimi: *"Əgər icazə versək, texnologiya təhsil dünyasının əvvəlkindən daha uzaqlara və daha sürətli uçmasına imkan verəcək "qanadlarına" çevrilə bilər"* (2).

İnkişaf etmiş dünyada təhsilin rəqəmsallaşdırılması ilk görüntülü danışıq icad olunandan tətbiq olunmağa başladı. Təəssüf ki, Azərbaycanda bu proses çox ləng gedir və geçikir. Pandemiya dövründə ölkəmizdə təhsilin rəqəmsallaşdırılması sürətləndi, lakin əyani tədris bərpa olunduqdan sonra təhsil müəssisələrinin çoxu tamamilə köhnə sistemə qayıtdı və bu sahədə əldə olunmuş bəzi baçarıqlar da unudulmağa başlandı. Halbuki onun inkişafı qaçılmazdır, mütləqdir.

"İnformasiya texnologiyalarının inkişafının təhsil sahəsində daha səmərəli istifadə edilməsi zəruridir. Baş verənlərə ayaq uydurmayanlar bir çox problemlərlə üzləşəcəklər. Bu problem vəziyyəti açıq-aşkar ortaya qoymaqdadır: Bu gün yeni təhsil texnologiyalarından istifadə etmədən təhsili gerçəkləşdirmək, demək olar ki, mümkün deyil" (Sarsici, Celik, 2019: 340).

Fənlər üzrə materialların onlayn platformaya yerləşdirilməsi, tələbələr arasında onlayn müzakirələrin keçirilməsi, imtahanların təşkili, sərbəst işlərin onlayn platforma üzərindən təhvil verilməsi, tələbəyə distant fərdi öyrənmə imkanının yaradılması ənənəvi tədrislə paralel şəkildə həyata keçirilməlidir. Auditoriyada ənənəvi öyrənmə prosesi ən azı "ağıllı" lövhələrin istifadəsi, audio-video materialların nümayişi, müxtəlif proqramlarnın verdiyi digər informasiya texnologiya imkanları ilə zənginləşdirilməlidir.

Uşaqlarımızın öyrənmə üsulları dəyişir və təhsil sisteminin rəqəmsal inqilabla ayaqlaşması tamamilə vacibdir. Gənc nəsil üçün cəmiyyətin rəqəmsal transformasiyasından qaçmaq mümkün deyil. Bu günün tələbələri öz telefonları, smartfonları, planşetləri ilə hər gün çoxsaylı məlumatlar alır və paylaşırlar. Günümüzdə rəqəmsal transformasiya sürətlənir və yeni öyrənmə üsulları təklif edir. Rəqəmsal təhsildən istifadə məktəbəqədər təhsildən tutmuş universitetə qədər bütün təhsil müəssisələri üçün vacibdir.

**Rəqəmsal təhsilin üstünlükləri nələrdir?**

1. Öyrənmə imkanlarının genişləndirilməsi

Rəqəmsal öyrənmə tələbələrə müxtəlif kurslarda iştirak etmək üçün qapı açır. İnternet bağlantısı varsa, kurslara demək olar ki, hər yerdə daxil olmaq mümkündür. Artıq yeni dil öyrənmək və ya hansısa xüsusi təlim keçmək istədikdə məsafəni qət etmədən, əlavə vaxt sərf etmədən müxtəlif sahələr, fənlər üzrə ekspertlər tərəfindən hazırlanmış kurslarda iştirak etmək mümkündür.

"Yaşadığımız dövrdə zaman hər şeydən vaçibdir. Hər sahədə olduğu kimi, informasiyaya sürətlə çatmaq cəmiyyət üçün böyük önəm kəsb edir. Məlumatı daha asanlıqla əldə etmək üçün rəqəmsal mühitdə təhsilin tətbiqi əhəmiyyət qazanmışdır" (Challi, Torkul, Ishman, 2014: 1).

2. İnformasiyanın genişliyi

Rəqəmsal öyrənmə tələbələrə sonsuz məlumat bazasından istifadə etməyə imkan verir və onları lazım olan mənbələri necə axtarmağı öyrədir. Onlar Google vasitəsilə istənilən anda sonsuz sayda pulsuz, yeni biliklər əldə edə bilirlər.

3. Birgə öyrənmə

Rəqəmsal təhsilin yaranması müxtəlif qruplar, komandalar yaratmaq üçün geniş imkanlar açdı. Tələbələrimiz bunu Zoom, Microsoft Teams və ya hər hansı platformada asanlıqla edirlər. Bu, həm onlayn şəkildə öyrənməyə yardım edir, həm də müxtəlif qrupları eyni öyrənmə məkanına gətirir. Rəqəmsallaşdırılmış öyrənmə vasitəsi ilə tələbələr birgə müzakirənin bütün üstünlüklərindən istifadə edə bilərlər.

4. Fərdiləşdirilmiş öyrənmə

Təhsilin rəqəmsallaşdırılmasının ən böyük üstünlüklərindən biri də odur ki, o, müəllimlərə tək bir tələbəyə uyğunlaşdırılmış təlim planı ilə işləmək imkanı verir. Tələbələr əlavə yardıma ehtiyac duyduqları təqdirdə müəllimlərə tez və asan çıxış əldə edə bilərlər.

5. Onlayn imtahanlar

Rəqəmsallaşma imtahan prosesini həm müəllimlər, həm də tələbələr üçün rahat etməkdədir. Artıq tədris müəssisələrinin bir çoxunda imtahanlarda rəqəmsallaşmanın imkanlarından istifadə edilir. Bu həm də maddi resurslara qənaət etmək üçün düzgün üsul olduğunu sübut edir.

6. Elektron dərsliklər və qrafik şəkillər

Elektron dərsliklər müasir texnikanın nailiyyətlərini, fənlər üzrə mövzuları, dizayn və bədii keyfiyyətləri özündə birləşdirir, eyni zamanda, kağızın istifadəsini məhdudlaşdırır. Qrafik şəkillər tələbələrin daha yaxşı öyrənmələri üçün cəlbedici bir yanaşmadır. Mövzunun əyani təsvirini verməklə, tələbələr anlayışı daha yaxşı qavrayırlar. Ən çətin mövzuları belə şəkillərin köməyi ilə sadələşdirilmiş şəkildə təqdim etmək olur: "Münasib proqramlar tələbələrin qrafik şəkillər sayəsində yeni materialları daha yaxşı qavramalarına kömək edir" (Ivanova, 2015: 124).

Göründüyü kimi, rəqəmsal təhsil sisteminin üstünlükləri çoxdur. Gələcəyin təhsil sistemi əsasən müstəqil iş üzərində qurulub, ona görə də təhsilalanlara biliyə can atmaq öyrədilməlidir. Belə bir təhsil bazası insanın xarakterini daha möhkəm və məqsədyönlü edir, həm də maraq dairəsində daha yaxşı nəticələr əldə etməyə imkan verir. Təhsilalanlar müstəqil olmağı öyrənirlər.

Rəqəmsal təhsil tələbələri özləri ilə dərsə çoxlu sayda dərslik və dəftər gətirmək məcburiyyətindən xilas edir. Bu kağız daşıyıcıları təhsilalanların şəxsi planşeti və sinif otağında kompüteri əvəz etməlidir. Təhsilin rəqəmsallaşması dərsliklər, dəftərlər, gündəliklər və s. kimi kağız daşıyıcılardan qurtulmağı nəzərdə tutduğundan, bu zaman valideynlər də onları almaq məcburiyyətində olmayacaq. Bu da onlara maddi cəhətdən kömək olacaq.

"Rəqəmsal texniki bacarıqlar təhsili həm akademik, həm də pedaqoji cəhətdən üstələyir" (Knox, 2019: 357-370). Müəllimlik psixoloji baxımdan çox çətin peşədir. Müəllimdən hər bir şagirdə fərdi yanaşma tələb olunduğundan o, çox vaxt və əsəb sərf edir. Rəqəmsal versiyada müəllim yalnız onların fəaliyyət istiqamətini təyin edir. Rəqəmsal təhsil müəllimlərin də işini asanlaşdırar.

"Təhsilin rəqəmsallaşması xüsusilə ömür boyu öyrənmə sahəsində bilik, bacarıq, vərdişlərin əldə edilməsinə gətirib çıxarır. Bu prosesdə biz texnikadan, rəqabətdən və valyutadan innovasiyaya, stimullaşdırmaya, səlahiyyətləndirmə və keyfiyyətə doğru keçidi görə bilərik" (Armila, Sivenius, Stankovic, 2022).

Təhsildə rəqəmsallaşma elektron tədris sisteminə keçid prosesidir. Rəqəmsal təhsil platformalarının mövcudluğu yüksək sürətli internet, maddi-texniki təchizat, elektron məlumat bazalarının olması ilə mümkündür. Çox təəssüf ki, hələ də bir çox təhsil müəssisələrində internetin olmaması və ya zəif olması problemi ilə rastlaşırıq. Halbuki əyani təlimlə yanaşı, onlayn kurslar, imtahanlar, elektron dərsliklər, viktorinalar kimi müxtəlif rəqəmsal üsullardan istifadə təhsilin keyfiyyətini artırmaq üçün çox gərəklidir.

Təhsildə rəqəmsallaşmanın sürətlənməsi günün tələbidir. Təhsil sahəsində rəqəmsallaşma qarşıya bir sıra vəzifələr qoyur: "Bunlara aşağıdakılar daxildir: rəqəmsal texnologiyalar sahəsində

müəllimlərin bacarıqlarının təkmilləşdirilməsi, maddi infrastrukturun inkişafı, onlayn təhsilin inkişafı, rəqəmsal proqramların həyata keçirilməsi.

Qarışıq təlim formatının tətbiqi də nəzərdə tutulur ki, bu da tədrisin effektivliyini artıracaq, şagirdlərdə məsuliyyət hissini, özünə intizamı inkişaf etdirəcək" (8).

## Rəqəmsal təhsilin mənfi cəhətləri nələrdir?

Hazırda təhsilin rəqəmsallaşmasının müsbət yenilik olduğundan əminik, lakin onun bir sıra mənfi cəhətləri də var ki, onlar kifayət qədər ciddi məsələlərdir.

Psixoloq Yelena Molşanova yazır: "Belə bir yeniliyin bir sıra mənfi cəhətləri də var ki, onlar təkcə tələbələrin fiziki sağlamlığına deyil, həm də psixoloji vəziyyətinə təsir göstərə bilər. Birincisi, rəqəmsal öyrənmə ilə yazıya getdikcə daha az diqqət yetirilir ki, bu da tələbələrin bacarıqlarının azalmasına səbəb ola bilər, yəni onlar daha pis oxumağa və yazmağa başlayacaq və bu da onların koordinasiya bacarıqlarına təsir edəcəkdir, yəni düşüncələrini formalaşdırmaq qabiliyyətləri azalacaq. İkincisi, uzun müddət ekrana baxmaq göz yorğunluğuna səbəb olur. Bu, istər-istəməz görmə problemlərinə səbəb olacaq. Üçüncüsü, tələbələrin yaradıcı potensialının azalması, zehni fəaliyyətin azalması, sosiallaşmanın zəifləməsi, həmçinin fiziki inkişafda problemlər və s. riski yaranacaq. Bütün bunlar istər-istəməz təhsilin rəqəmsallaşmasına mənfi münasibətə gətirib çıxaracaq" (Molchanova, 2019:134).

Bütün bunlarla yanaşı, lazımi məlumatları internetdə əldə etmək mümkün olduğu üçün təhsilalanın düşünmə qabiliyyəti zəifləyir. Bir çox sualın həlli üzərində müstəqil düşünməyə ehtiyac qalmır, çünki onların artıq hazır cavabı var.

Şagird, tələbə məktəbə, universitetə gedəndə orada başqa insanlarla münasibət qurmağı öyrənir. Dostluq etməyi və fərqli insanlarla ünsiyyət qurmağı öyrənir. İnformasiya sistemi vasitəsilə bilik əldə etmək insanın sosiallaşma qabiliyyətini əhəmiyyətli dərəcədə azaldır ki, bu da onun şəxsiyyətinin inkişafına təsir etməyə bilməz.

Bunlar həqiqətdir, lakin təhsildə rəqəmsallaşma qaçılmaz bir prosesdir.

## Nəticə

Rəqəmsallaşma, şübhəsiz ki, təhsil sistemimizi dəyişir, lakin bu heç də, bizim auditoriyada öyrətdiklərimizin dəyərini aşağı salmır. Təhsilin rəqəmsallaşdırılmasının ən yaxşı tərəfi onun hər iki aspekti ilə birləşməsidir; əyani öyrənmə və onlayn öyrənmə üsulları. Onların hər ikisi parallel şəkildə həyata keçirilməlidir.

Rəqəmsal sistemin təhsil prosesinə tətbiqinin bütün üstünlükləri və mənfi cəhətləri yalnız bir neçə onillikdən sonra dəqiq qiymətləndirilə bilər. Rəqəmsallaşmanın təhsil sahəsinə necə təsir edəcəyini zaman göstərəcək.

## Ədəbiyyat

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. https://president.az/az/articles/view/50474)
3. Technology has changed the way of Learning. https://www.bartleby.com/essay/Technology-Has-Changed-The-Way-Of-Learning-PK7858T36Z3W
4. Sarsici, E., Celik, A. (2019). A model proposal for digital transformation in education. In proceedings of the International Virtual Symposium on innovations in education and social sciences. Gaziantep: Hasan Kalyoncu University. Adiyaman: Adiyaman University.
5. Challi, I., Torkul, O., Ishman, A. (2014). The past, present and future of distance education at Sakarya University. Sakarya University. "Faculty of Education" Magazine, 3 p.
6. Ivanova, E. (2015). № 5. Elektronny uchebnik-predmetnaya informasionno-obrazovaniya sreda samostoyatelnoy raboti uchashikhsya. Obrazovany i nauka, s.118-128.

7. Knox, J. (2019). What does the postdigital mean for education? Three critical perspectives on the digital, with implications for educational research and practice. Postdigital Science and Education, 1(2), p.357-370.
8. https://doi.org/10.1007/s42438-019-00045-y.
9. Armila, P., Sivenius, A., Stankovic, B. (2022). Digitalization of education: Commodification hidden in terms of empowerment? Postdigit Sci Educ.
10. https://doi.org/10.1007/s42438-022-00347-8
11. Tsifrovizatsiya obrazovaniya-nadezhdy i riski
12. https://vogazeta.ru/articles/2018/2/26/blog/2148-tsifrovizatsiya_obrazovaniya__nadezhdy_i_riski
13. Molchanova, Ye. (2019). O plyusakh I minusakh tsifrovizatsii sovremennogo obrazovaniya. Nauka v obrazovanii. № 64, s.133-135.

Göndərilib: 09.01.2023 Qəbul edilib: 16.03.2023